*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 10 sentyabr 2016-cı il | № 70 (2085) | Qiyməti 25 qəpik

# "Mən Azərbaycan əsgəriyəm"

*Böyük tarixi şəxsiyyət, ümummilli liderimiz Heydər Əliyev deyirdi: "Mən həmişə fəxr etmişəm, indi də fəxr edirəm ki, mən azərbaycanlıyam". Bu kəlam hər birimiz üçün ömür düsturudu, həyat, yaşamaq fəlsəfəsidi. Mənsub olduğumuz xalqın tarixi keçmişi, zəngin mədəniyyəti, ədəbiyyatı, incəsənəti ruhumuzun can ortağıdı. Mülkilərin də, hərbçilərin də.*



Oğullar böyüyür...
Oğullar hərbi xidmətə gedir...
Oğullar əsgər kimi Vətənə xidmət edir. Onlar Ulu Öndərin müdrik kəlamının cazibəsində həm də "Mən fəxr edirəm ki, Azərbaycan əsgəriyəm!" - deyirlər. Torpaqlarımızı bu qürurun işığında qoruyurlar, bu qürurun işığında döyüş növbəsində dayanırlar, hərbi biliklərə bu qürurla yiyələnirlər, atıcı silahların xüsusiyyətlərini bu qürura istinadən öyrənirlər.

Azərbaycan əsgəri üçün çətinliklər ötəridi; Azərbaycan əsgəri çətinlikləri, çətin təbii şəraiti dözümüylə, qətiyyətiylə, başlıcası, Vətən sevgisiylə "yumşaldır". Qışın sazağında soyuq səngərlər onların nəfəsiylə isinir, yayın istisində də səngərlər onların əllərinin təmasıyla sərinləyir.

Azərbaycan əsgəri hərbi xidmətə yola düşmə ərəfəsində anasının dediyi "Mənim oğlum idin, sabahdan Vətənin oğlusan" - kəlmələrini unutmur.

Səngər qətiyyətin, cəsarətin başlanğıcıdı. Sülh danışıqları baş tutmasa, Azərbaycan əsgəri səngərindən çıxacaq, bu axının yolunu heç nə kəsə bilməyəcək!

"Azərbaycan Ordusu"nun böyük ehtiramla təqdim etdiyi bu əsgər onlardan biridi. Yüksək döyüş və mənəvi hazırlığa malik əsgərlərimizlə qürurlanırıq. Bu qürur Silahlı Qüvvələrimizə ad olan qürurdu. Bu qürur xalqın inamıdı, etibarıdı. Aprel döyüşləri bu inamın, bu etimadın, bu etibarın təntənəsiydi. Bizi Şuşada da, Laçında da, Kəlbəcərdə də, Ağdamda da, Füzulidə də, Cəbrayılda da, Qubadlıda da, Zəngilanda da böyük təntənələr gözləyir. O təntənəni məmləkətimizə Azərbaycan əsgəri yaşadacaq.

Bu əsgəri - hərbi xidmətə Ağcabədi rayonundan çağırılmış Mehman Şükürovu Azərbaycan əsgərinin ümumiləşmiş obrazı kimi tanıyın. Onların hər biri döyüş növbəsində "Mən Azərbaycan əsgəriyəm!" qüruruyla qoşa dayanır. Azərbaycan əsgərinin ən güclü silahı bu qürurdu. Bu qürur inamdı, etibardı, milli heysiyyətdi, Vətən sevgisidi...

"Mən Azərbaycan əsgəriyəm!" - deyənlər yaxınlarda "Biz qələbə qazandıq!" deyəcək. Bu əsgərlərin kiçik qardaşları "Mən əsgər olacam!" - deyir!...

Oğullar böyüyür...
Oğullar hərbi xidmətə gedir...
Əsgərlərimizin "Mən Azərbaycan əsgəriyəm!" - qüruru böyük Qələbəyə, böyük Qələbədən sonra sərhəd bütövlüyümüzün təmin ediləcəyi günə yaxınlaşdırır...

**"Azərbaycan Ordusu"**



15 sentyabr: Türkiyə və Azərbaycan

3-cü səhifədə



Təlimdən-təlimə

5-ci səhifədə



Əsən yellər yüksəkliyə tələsir

6-cı səhifədə



Sevgi ilə bişirilən çörək

7-ci səhifədə

# Azərbaycan və Böyük Britaniya Müdafiə nazirləri arasında görüş keçirilib




*Londonda səfərdə olan Müdafiə naziri general-polkovnik Zakir Həsənov Böyük Britaniyanın Müdafiə naziri cənab Maykl Fallon ilə görüş keçirib.*

Azərbaycan ilə Böyük Britaniya Müdafiə nazirləri səviyyəsində ilk dəfə olaraq təşkil olunan rəsmi görüşdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, ölkələrimiz arasında müxtəlif sahələrdə, xüsusilə hərbi sahədə münasibətlərin inkişaf etdirilməsi məsələləri müzakirə olunub, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Eyni zamanda ikitərəfli əsasda və NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" Proqramı çərçivəsində keçirilən tədbirlərdə, o cümlədən sülhməramlı əməliyyatlarda Azərbaycanın fəal iştirakı xüsusi qeyd olunub.

Tərəflər iki ölkə arasında hərbi və hərbi-texniki sahədə əməkdaşlığa dair geniş fikir mübadiləsi aparıb və əməkdaşlığın gələcək perspektivlərini müzakirə ediblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Londonda BMT-nin sülhməramlı əməliyyatları mövzusunda Müdafiə nazirlərinin görüşü

*Londonda BMT-nin sülhməramlı əməliyyatları mövzusunda Müdafiə nazirlərinin görüşü keçirilir. Görüşdə Müdafiə naziri general-polkovnik Zakir Həsənov da iştirak edir.*

Görüş Böyük Britaniyanın Müdafiə naziri Maykl Fallonun sədrliyi ilə keçirilir. Bu tədbir ötən ilin sentyabrında BMT-nin baş katibi Pan Gi Mun və ABŞ Prezidenti Barak Obama tərəfindən 50-yə yaxın ölkə başçısı ilə dünyada sülhməramlılığın qorunmasına dair keçirilən görüşün davamı və bu sahədə görülən qlobal işlərin daha da sürətləndirilməsi xarakteri daşıyır.

Görüşdə 80-ə yaxın ölkənin Müdafiə naziri iştirak edir.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**




# Azərbaycanın sülhməramlı əməliyyatlarda fəaliyyəti yüksək qiymətləndirilib




*Birləşmiş Millətlər Təşkilatının sülhməramlı əməliyyatları mövzusunda Müdafiə nazirlərinin London şəhərində davam edən tədbiri çərçivəsində Müdafiə naziri general-polkovnik Zakir Həsənov sentyabrın 8-də Lordlar Palatasında Müdafiə üzrə Dövlət naziri, Lordlar Palatasının sədr müavini cənab Örl Hou ilə görüşüb.*

Görüş zamanı Azərbaycanın indiyədək sülhməramlı əməliyyatlarda, eləcə də Əfqanıstanda həyata keçirilən missiyada iştirakı yüksək qiymətləndirilib, BMT-nin sülhməramlı fəaliyyətinin təkmilləşdirilməsinə dair fikir mübadiləsi aparılıb, ölkəmizin bu fəaliyyətdəki perspektivləri və iki ölkə arasında hərbi əməkdaşlıq məsələləri müzakirə olunub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Azərbaycanla Böyük Britaniya arasında hərbi əməkdaşlıq məsələləri müzakirə olunub



Londonda səfərdə olan Müdafiə naziri general-polkovnik Zakir Həsənov sentyabrın 8-də Böyük Britaniya Baş nazirinin xüsusi elçisi, Lordlar Palatasının üzvü xanım baronessa Emma Harriet Nikolson ilə görüş keçirib.

Görüşdə tərəflər iki ölkə arasında hərbi və hərbi-texniki sahədə əməkdaşlığa dair fikir mübadiləsi aparıb, münasibətlərin gələcək perspektivlərini müzakirə ediblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Hərbi Dəniz Qüvvələri komandanı Cənubi Koreyada səfərdə olub

*Azərbaycan Respublikasının Hərbi Dəniz Qüvvələri komandanının rəhbərlik etdiyi nümayəndə heyəti Koreya Respublikasının Hərbi Dəniz Qüvvələri Baş komandanının dəvəti ilə Koreya Respublikasına işçi səfər edib.*

Səfər zamanı Hərbi Dəniz Qüvvələri komandanının vəzifələrini icra edən 1-ci dərəcəli kapitan Hicran Rüstəmzadə Cənubi Koreya Respublikasının Hərbi Dəniz Qüvvələrinin Baş komandanı ilə görüşüb.

Görüşdə iki ölkənin hərbi dəniz qüvvələri arasında əməkdaşlıq məsələləri müzakirə olunub, qarşılıqlı təcrübə mübadiləsinin əhəmiyyəti vurğulanıb və müxtəlif məsələlər üzrə fikir mübadiləsi aparılıb.




Səfər zamanı 1-ci dərəcəli kapitan H.Rüstəmzadə Hərbi Dəniz Akademiyasının su-qayıq donanmasının gəmi inşaat müəssisəsində və bir sıra başqa hərbi obyektlərdə olub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Monitorinq baş tutub

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, sentyabrın 7-də Göygöl rayonunun Ömər dağ keçidində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının qarşıdurma xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***9 sentyabr 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 24 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Barekamavan kəndində, İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı kəndində və adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Qorqan, Qaraxanbəyli, Xocavənd rayonunun Kuropatkino kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

*Şərəf tarixi*

# 15 sentyabr: Türkiyə və Azərbaycan

*Yazımı yaddaşımın dərinliklərində əbədi məskən quran alovlu misralarla başlamağım heç də təsadüf deyil. Bunu özümə mənəvi borc bilib söyləyirəm:*

*Yolçu!*
*Bu məzarda uyuyan şəhid,*
*Qardaşın qardaşa*
*əmanətidir.*
*Odlar diyarının istiqlalına*
*Qoca Türkiyənin*
*zəmanətidir!*

**Tarixdən səhifələr.** 1918-ci ildə Nuru paşanın komandanlığı altında Qafqaz İslam Ordusunun Azərbaycana gəlişi, yerli gənclərin böyük həvəslə ordu hissələrinə yazılması və Osmanlı dövlətinin çox ağır vəziyyətdə olan dost, qardaş Azərbaycana növbəti hərbi yardımı Bakıdakı Xalq Komissarları Sovetini təşvişə salır, onları adekvat addımlar atmağa sövq edirdi. Bu işdə xüsusi canfəşanlıq göstərən bolşevik-daşnak birləşmələrinin rəhbəri Stepan Şaumyan Bakıda cəmləşən erməni milli şurasının 4-5 min nəfərlik qüvvəsini bolşevik dəstələri ilə birləşdirdi. O bu barədə yazırdı ki, türk ordusuna qarşı hücum əməliyyatında iştirak etmək üçün Kürdəmirə göndərdiyi qüvvələrin sayı 13 min nəfərdən çoxdur. Bütövlükdə isə canlı qüvvənin sayı 18 minə çatırdı, bunun da 60-70 faizdən çoxunu ermənilər təşkil edirdi. Bu zaman Osmanlının Qafqaza gəlişindən təlaşlanan daşnak və bolşeviklərin Bakıda möhkəmlənməsi üçün ardıarası kəsilmədən hərbi qüvvə və texnika göndərilirdi. Bolşevik qəzetləri isə "Moskvadan Bakıya yardım" başlıqlı məqalələr dərc edirdi.

1918-ci ilin iyununda Qafqaz İslam Ordusu Gümrü və Qazax yolu ilə Gəncəyə doğru hərəkət edərkən bolşevik-daşnak birləşmələri Sığırlı stansiyasında müdafiə xəttində dayanan Müsəlman Korpusu üzərinə



hücuma keçdilər və stansiyanı işğal etdilər. Beləliklə, Qafqaz İslam Ordusu cəbhəsində uğursuzluqlar başlanır, silah və canlı qüvvə baxımından itkilər olurdu. Bu zaman komandan Nuru paşa uğur qazanmaq üçün bütün imkanları ümumiləşdirərək döyüş hazırlığına əmr verdi. Hücum iyunun 28-nə planlaşdırıldı. Havanın isti keçməsinə, ordudakı nöqsanlara baxmyaraq, Qafqaz İslam Ordusu Qaraməryəmin qərb hissəsinə nəzarəti ələ keçirdi. Daşnak və bolşeviklər Göyçayda da tab gətirə bilmədi və geri çəkildilər. Bolşevik mətbuatı həyəcanlı halda təcili canlı qüvvə lazım olduğu barədə elanlar dərc etməyə başladı. Bakı Xalq Komissarları Soveti gənclərin təcili orduya səfərbərliyini elan etdi. Lakin keçirilən bütün inzibati tədbirlər heç bir nəticə vermədi.

Cəbhədə təşəbbüsü yenidən ələ almaq üçün Bakı Soveti bu dəfə Zaqafqaziya xalqlarına müraciət edərək onları türk ordusuna qarşı mübarizəyə səsləyirdi. Döyüş bölgəsindən geri dönən bolşevik Petrov mətbuatda bu barədə yazırdı: "Mənə cəbhədə olan ağır vəziyyəti təsvir etmək olduqca çətindir. Orada olanları izah edənlər boş, mənasız danışırlar. İkinci Bakı stansiyasından artıq atəş başlayır. Sanki biz cəbhəyə yox, toya gedirdik. Hacıqabula çatanda gördük ki, burada hərbi dəstə rədək getdik. Yolda su yox idi, ərzaq çatışmırdı, əlimizə nə gəlirdi yeyirdik. Altı nəfər buna görə öldü."

1918-ci ilin iyulun ortalarında Göyçay, Ağsu, Salyan və Kürdəmir bolşeviklərdən təmizləndi. Qarşıda ən əhəmiyyətli planın - Bakının azad olunması planının həyata keçirilməsi dayanırdı... Bakının azadlığı isə Şamaxının qurtuluşundan keçirdi.

Rəşadətli türk generalı Nuru paşa gücünü yenidən topladı. İyulun 19-da başlanan hücuma davam gətirməyən bolşevik qüvvələri Şamaxıdan da geri çəkilməyə başladı. Bolşeviklərin məğlubiyyətinin səbəblərini düşünməyə məcal tapmayan İ.V.Stalin iyulun 21-də Saritsınodan V.İ.Leninə teleqram göndərərək Bakıdakı vəziyyəti anladırdı: "Bakıda Şaumyandan alınan məlumata görə, sovetdəki eser və daşnaklar ingilisləri Bakıya çağırmağı tələb edirlər. İngilis, fransız agentləri tərəfindən təşviq edilən ordunun və donanmanın bir hissəsi də bunu tələb edir. Şaumyan məndən hökumətin fikri barədə məlumat verməyi tələb edir."

O dövrdə bolşeviklərin cəbhədəki uğursuzluğu haqqında yazılara milli mətbuatımızın, o cümlədən "Azərbaycan" qəzetinin səhifələrində də rast gəlmək olurdu: "Onlar öz planlarında səhv edirdilər. Tarixin inkişaf prosesini dayandırmaq olmaz. Xalqların öz müqəddəratını təyin etməsi haqqı tanınmış müsəlmanlar üçün də olmalıydı. Siyasətbazların bütün əsassız iddiaları Türkiyə və Azərbaycanın qəhrəman oğulları tərəfindən puç edildi."

İyulun 30-da Bakıya doğru hərəkət edən milli qüvvələrimiz Alabatan məntəqəsinin cənubunda bolşeviklərin bir piyada taboru və 200 nəfərlik süvarisi ilə qarşılaşdı. Davamlı hücuma başlayan türk ordusu çox keçmədən bolşevik qüvvələrinin mövqelərini ələ keçirdi. Cəbhədəki uğursuzluqları görən erməni terrorçu daşnakları Avetisov, Qazarov, Amazasp çıxış yolu kimi Qafqaz İslam Ordusu ilə danışıqlara razı oldular.

Bakı ətrafında həlledici döyüşə az vaxt qalırdı. 1918-ci il avqustun 13-də 107-ci Qafqaz türk alayı Azərbaycana gəlir. Eyni zamanda qərara alınır ki, 15-ci türk diviziyası da Azərbaycana göndərilsin.Türkiyənin Şərq orduları qrupunun komandanı Xəlil paşanın da Azərbaycana gəlişi gözlənilirdi. Bütün bu hazırlıq prosesindən sonra qələbə hücumu sentyabrın 11-nə planlaşdırıldı. Bakının azad olunması isə sentyabrın 14-ü gecə saat 02.00-da gerçəkləşdi. Üzlər güldü, generallar əsgər və zabitlərin alınlarından öpdülər. Türk və Azərbaycan generalları paytaxt Bakıya daxil oldular...

Cümhuriyyətin rəsmi orqanı olan "Azərbaycan" qəzeti tariximizə yazılmış bu qələbəni ayrıca bir şərəflə, qürurla öyür, Qafqaz İslam Ordusunun komandanı Nuru paşanı fateh adlandırırdı...

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Qobu qəsəbəsində şəhid əsgərin xatirəsi yad edilib

*Müdafiə Nazirliyi və Abşeron rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Qobu qəsəbəsindəki Şəhidlər kompleksində döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuş Silahlı Qüvvələrin əsgəri Heydərov Əli İntiqam oğlunun xatirəsinə həsr edilmiş tədbir keçirilib.*



Əvvəlcə kompleksin önünə əklil qoyulub, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Qəsəbə orta məktəbinin direktoru Cəbrayıl Cəfərquliyev tədbir iştirakçılarını qobulular adından salamlayıb və bu kimi tədbirlərin xüsusilə gənclərin hərbi vətənpərvərlik tərbiyəsində mühüm rol oynadığını qeyd edib.

Nəzərə çatdırılıb ki, qobulular tarixin bütün mərhələlərində Vətənə, xalqa, dövlətə sədaqət nümayiş etdirmiş, Vətən uğrunda canlarını, qanlarını belə əsirgəməmişlər.

1918-ci ildə Bakının daşnak-bolşeviklərdən təmizlənməsində qəhrəmanlıqlar göstərmiş Məşədi Hilal Hacı İsmayıl oğlu Qobunun ilk şəhidlərindəndir.

1941-1945-ci illər Böyük Vətən müharibəsində Qobu kəndindən 400 nəfərdən çox döyüşçü iştirak etmiş, onların yarıdan çoxu geri qayıtmamışdır.

Əfqanıstanda beynəlmiləl borcunu yerinə yetirərkən həlak olan əsgərlərin və 20 Yanvar şəhidlərinin sıralarında da Qobu qəsəbəsindən olan igidlər vardır.

Qarabağ uğrunda döyüşlərin başlandığı ilk günlərdən qobulular da cəbhəyə könüllü yollanmış, onlardan 21 nəfəri şəhidlik zirvəsinə ucalmışdır. Bu gün də qəsəbənin hər bir sakini Əli Heydərov kimi oğullarımızın intiqamını almağa hazırdır.

Abşeron rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova ulu öndər Heydər Əliyevin ordu quruculuğu sahəsində müstəsna xidmətlərini yada salıb, bu işin möhtərəm Prezidentimiz cənab İlham Əliyevin fəaliyyətində bu gün də prioritet olduğunu vurğulayıb.

Aprel döyüşləri zamanı Azərbaycan əsgərinin göstərdiyi qəhrəmanlıqların ordu tariximizə qalibiyyət dastanı kimi yazıldığını qeyd edən icra başçısı bütün xalqımız kimi abşeronluların da qətiyyətli və müdrik Ali Baş Komandanımıza inandıqlarını, Azərbaycan əsgərinə güvəndiklərini, ordu quruculuğundakı son nailiyyətlərin rayon əhalisinin də döyüş ruhunun, vətənpərvərlik hissinin daha da yüksəlməsinə səbəb olduğunu bildirib.

Şəhid Əli Heydərovun valideynlərinə bir daha dərin hüznlə başsağlığı verən icra başçısı onların övladlarının Talış yüksəkliyi uğrundakı döyüşlərdə göstərdiyi igidlikdən həmin döyüşlərin getdiyi vaxtlarda xəbər tutduğunu, ata və qardaşının döyüşlərə könüllü getmək üçün müraciət etdiklərini də xatırlayıb.

Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani şəhid əsgərin qısa, lakin mənalı ömür yolundan danışıb. Diqqətə çatdırıb ki, Əli İntiqam oğlu Heydərov 1997-ci il mayın 10-da Qobuda dünyaya gəlib. Qəsəbə orta məktəbini bitirdikdən sonra həqiqi hərbi xidmətə çağırılıb. Aprel döyüşlərində atıcı-qumbaraatan köməkçisi kimi iştirak edib.





Əsgəri olduğu hərbi hissənin döyüşçüləri ilə birlikdə düşmənin layiqli dərsini verən, xalqımıza qələbə sevinci yaşadan oğulların sırasında o da fərqlənib, fəxri fərmanla təltif olunub. Lakin aprel döyüşlərindən sağ çıxsa da, ad gününə iki gün qalmış döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sonra polkovnik A.Qurbani Azərbaycan Respublikasının Prezidenti adından Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmri ilə əsgər Əli Heydərovun ölümündən sonra layiq görüldüyü "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı şəhidin ailəsinə təqdim edib.

Şəhid atası İntiqam Heydərov göstərilən diqqət və qayğıya görə Azərbaycan Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirib.

Oğlunun Vətən uğrunda şəhidliyindən böyük iftixar hissi keçirən ata iki oğlu ilə birlikdə günü bu gün döyüşə atılmağa hazır olduğunu bəyan edib.

Qəsəbə ağsaqqalları adından çıxış edən Kərəm Şahlıyevin dediyi "Mən 80 yaşımı çoxdan haqlamışam. Ancaq bu yaşda da mən İlham Əliyev kimi bir sərkərdənin komandanlıq etdiyi ordunun əsgərləri ilə bir yerdə döyüşlərə atılmağa hazıram!" - sözləri tədbir iştirakçılarının alqışlarına səbəb olub.

Hərbi qulluqçular adından çıxış edən polkovnik Elşad Əbilov tədbir iştirakçılarını əmin edib ki gündən-günə daha da qüdrətlənən, güclənən Silahlı Qüvvələrimiz qarşıya qoyulan döyüş tapşırığını, hücum əmrini yerinə yetirməyə hər an hazır və qadirdir.

Xatirə mərasiminin sonunda Müdafiə Nazirliyinin nəşri olan "Ruhumuzun qələbəsi naminə" adlı kitab-albom Abşeron rayon İcra Hakimiyyətinə təqdim edilib, məktəblilər vətənpərvərlik mövzusunda şeirlər söyləyib, kompleksə daxil olan muzey və şəhidin el qəbiristanlığındakı məzarı ziyarət olunub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti,**
**fotolar M.MÖHBALIYEVİNDİR**

## General-leytenant Yaşar Aydəmirov:
## Ermənistan indi də virtual məkanda atəşkəs rejimini pozmağa başlayıb

*Ermənistan hərbi rəhbərliyi münaqişə bölgəsində vəziyyəti gərginləşdirmək məqsədilə indi də virtual məkanda atəşkəs rejimini pozmağa başlayıb.*

Bunu ehtiyatda olan general-leytenant Yaşar Aydəmirov AZƏRTAC-ın sorğusuna cavab olaraq deyib.

Y.Aydəmirov bildirib ki, aprel döyüşlərindən sonra ağır zərbə almış Ermənistanın hərbi-siyasi rejiminin cinayətkar nümayəndələrindən biri, "özünümüdafiə" adı altında fəaliyyət göstərən quldur və separatçı dəstələrin başçısı Levon Mnasakanyanın erməni mətbuatında səsləndirdiyi cəfəng fikirlər öz bacarıqsızlığına, səriştəsizliyinə bəraət qazanmağa çalışan günahkar şəxsin fikirlərinə bənzəyir. Müxtəlif humanitar qurumların, erməni təşkilatlarının yardımları və daxil olan vəsaitlər hesabına bu gün ayaqda qalmağa çalışan Ermənistanın kriminal hərbi-siyasi rejiminin tez-tez yeni silahlar almaqdan, ordunun texniki imkanlarının artırılmasından, ön xəttin möhkəmləndirilməsindən, cəbhə xəttinin keçilməz, yarılmaz olmasından danışması gözə kül üfürməkdən başqa bir şey deyil. Aprel hadisələri bunu tam çılpaqlığı ilə üzə çıxardı. Erməni hərbi rəhbərliyinin illərlə tərifləsaid, şöhrətini göylərə qaldırdığı "möhkəmləndirilmiş mövqeləri" yarmağa və irəliləməyə Azərbaycan əsgərinə bir neçə saat kifayət etdi. Əgər ermənilər bunu unudublarsa və bir daha təxribatlara əl atacaqlarsa, lazım gəldiyi an ordumuz yenidən bu addımı daha sərt şəkildə təkrar etməyə və onların hafizəsini təzələməyə tam hazırdır. Əminliklə deyə bilərəm ki, Silahlı Qüvvələrimiz buna qadirdir.

Ehtiyatda olan general-leytenant deyib ki, belə fikirləri səsləndirmək bixəbərlikdən qaynaqlanır. Belə ki, mərkəzdə yerləşən hərbi hissələrdə vəziyyət barədə anlayışları olmayan kriminal hərbi rejimin ucqar nöqtələrdə ön xətdə nə baş verməsindən danışması da erməniləri gülünc vəziyyətdə qoyur. Buna misal olaraq, həlak olan erməni hərbçisi Araik Ordubekyan haqqında iki gün ərzində yayılan və birbirini təkzib edən üç məlumatı göstərmək olar. İlk olaraq, erməni əsgərin ölümündə Azərbaycan tərəfini günahlandıran, bir gün sonra onu medalla təltif edən, sonra isə dərhal həmin əsgərin Azərbaycan tərəfindən öldürülmədiyi və baş verən hadisə ilə bağlı araşdırma aparılması barədə L.Mnasakanyanın rəhbəri olduğu qondarma qurumun məlumat verməsi, sözün həqiqi mənasında, erməni hərbi birləşmələrində, guya ona tabe olan, əslində isə özbaşına fəaliyyət göstərən quldur və separatçı dəstələrdə hökm sürən kriminal vəziyyətdən, anarxiyadan, eləcə də işğal olunmuş ərazilərdə baş verənlərdən tamamən xəbərsiz olduğunu açıqaydın göstərir.

"Ermənistan hakimiyyətinin və ordusunun diasporun topladığı vəsait hesabına dolandığı halda, gah Ermənistan Müdafiə Nazirliyinin vəzifəli şəxslərinin, gah da qondarma rejimin nümayəndələrinin guya silah-sursat alaraq hərbiləşdirilmiş dəstələrini gücləndirmələri barədə müxtəlif bəyanatlar yaymaları inandırıcı görünmür və gülüş doğurur", - deyə Y.Aydəmirov əlavə edib.

# Təlimdən-təlimə

## Ordumuz il ərzində keçirilən təlimlərdə bir çox yeniliklərə imza atıb

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə və təsdiq edilmiş döyüş hazırlığı planına əsasən, 3 minədək şəxsi heyət, 30-dan artıq döyüş gəmisi, katerlər, 20-dək döyüş təyyarəsi, helikopterlər və 20-dən çox raket-artilleriya qurğusunun da cəlb edildiyi son irimiqyaslı təlimlər uğurla başa çatıb.*

Təlimlərin əsas mərhələsində Müdafiə Nazirliyinin rəhbər heyəti komanda idarəetmə gəmisində dəniz poliqonunda təlim tapşırıqlarını yerinə yetirən qüvvə və bölmələrin manevrlərini və döyüş atışlarını izləyib. Hərbi Dəniz Qüvvələri, Hərbi Hava Qüvvələri, Raket və Artilleriya Qoşunlarının qüvvə və vasitələri, eləcə də xüsusi təyinatlıların iştirakı ilə keçirilən təlimlərin ilkin mərhələsində HDQ-nin tam döyüşə hazır vəziyyətə gətirilməsi, gəmi qruplarının, hissə və bölmələrin cəmləşmə rayonlarına çıxışı, komplektləşdirmə və döyüş uzlaşması tapşırıqları müvəffəqiyyətlə icra olunub.

Əvvəl keçirilən təlimlərdə olduğu kimi, bu təlimlərdə də hərbçilərimiz daha bir yeniliyə imza atdılar. Xəzər dənizinin Azərbaycana məxsus hissəsində şərti düşmənin hədəflərini məhv etmək və gəmi qruplaşmalarına atəş dəstəyi vermək üçün sahilboyu yerləşdirilən Raket və Artilleriya Qoşunlarının bölmələrindən də istifadə edildi.

Müdafiə Nazirliyi daha bir yeniliyə ötən irimiqyaslı təlimlərin birində imza atıb. Bu, şəxsi heyətin, silah və texnikanın gecə məşqlərinə cəlb edilməsi və məhdud görmə şəraitində döyüş atışlarının yerinə yetirməsi oldu. Təlimin ssenarisinə əsasən, gecə şəraitində şərti döyüşdə əsas qüvvələr və himayə bölmələri tapşırıqları müvəffəqiyyətlə icra ediblər. Motoatıcı və tank bölmələri, raket və artilleriya qurğuları, zenit-raket kompleksləri, təyyarə və helikopterlər döyüş atışlarını və raket buraxılışlarını, o cümlədən bombalamanı həyata keçiriblər. İlk dəfə gecə vaxtı və məhdud görmə şəraitində keçirilən birgə təlimlərin bütün elementləri dəqiq və peşəkarlıqla yerinə yetirilib. Şəxsi heyətin döyüş bacarığı Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən yüksək qiymətləndirilib. Bu təlimlərdə 15 minədək şəxsi heyət, 200-dək zirehli texnika, raket və artilleriya qoşunlarının 300-dən artıq qurğusu, Hərbi Hava Qüvvələrinin 12 döyüş helikopteri və 8 döyüş təyyarəsi, həmçinin qruplaşmanın havadan mühafizəsi məqsədilə müasir müdafiə kompleksləri ilə silahlanmış hava hücumundan müdafiə bölmələri və zenit-raket birləşmələri iştirak edib.

İlk dəfə olaraq, irimiqyaslı birgə taktiki təlimlərdə iştirak etmək üçün Türkiyə Hərbi Hava Qüvvələrinin aviasiya vasitələri Azərbaycana gəldi. Təlimlərdə hər iki ölkəyə məxsus 30-dan artıq aviasiya vasitəsi, o cümlədən, "MiQ-29", "F-16" qırıcı, "Su-25" hücum və "C-130 Herkules" hərbi-nəqliyyat təyyarələri, "Mi-24", "AH-1W Super Cobra" döyüş və "Mi-17", "Sikorski UH-60" döyüş-nəqliyyat helikopterləri iştirak etdi. Təlimlərdə iki ölkənin Hərbi Hava Qüvvələrinin müştərək fəaliyyətlərinin planlaşdırılması, əməliyyatların keçirilməsi üzrə qarşılıqlı fəaliyyət və döyüş uzlaşması imkanlarının öyrənilməsi, havadan zərbələr endirməklə yer hədəflərinin məhv edilməsi, o cümlədən şərti hava döyüşlərini təqlid etməklə müxtəlif manevrlər yerinə yetirərək praktiki təlim-döyüş uçuşları üzrə tapşırıqlar icra olundu.

Təlim iştirakçıları ilə görüşən Müdafiə naziri bildirmişdi ki, bundan əvvəl də Azərbaycan və Türkiyənin müxtəlif qoşun növlərinin iştirakı ilə birgə təlimlər keçirilib. "Ancaq hər iki dövlətin Hərbi Hava Qüvvələrinin birgə təlimləri və özü də Azərbaycanda keçirilməsi ilk dəfədir ki, baş tutur. Ən vacibi odur ki, Azərbaycan və Türkiyə hərbi pilotları birgə döyüş tapşırıqlarını yerinə yetirərkən bir-birini sığortalamaqla, bir-birinə döyüşdə dəstək verməklə təlimlər keçirlər".

Hərbi hava və hava hücumundan müdafiə qüvvələrinin keçirdiyi birgə təlimlərdə ilk dəfə olaraq, hava hədəflərinin məhv edilməsi üçün müxtəlif sistemlərdən döyüş atışları icra edilib və hədəflərin dəqiq məhv edilməsinə nail olunub.

Hava Hücumundan Müdafiə Qoşunlarının hərbi hissələrində döyüş atışlı növbəti təlimlərin keçirilməsi ilə əlaqədar müvafiq qüvvə və vasitələr qəfil "Həyəcan" siqnalı ilə döyüş hazırlığı vəziyyətinə gətirilib. Təlimin ssenarisinə əsasən, hava məkanını pozan şərti düşmən aşkarlanaraq izlənməyə götürülüb və təlim-döyüş tapşırığının yerinə yetirilməsi zamanı kiçik həcmli, aşağı yüksəklikdə, qrup halında uçan hədəflər raket zərbələri ilə dərhal məhv edilib. Döyüş tapşırığının yerinə yetirilməsi təlim mərkəzində "Osa" zenit-raket komplekslərinin istifadəsi ilə həyata keçirilib. Qarşıya qoyulan vəzifə və tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilib, şəxsi heyətin döyüş hazırlığı yenə də yüksək qiymətləndirilib.

Təlimlərdə tətbiq edilən daha bir yenilik pilotsuz uçuş aparatlarından (PUA) istifadə olunmasıdır. PUA-ları uğurla tətbiq etməyi öyrənən bölmələrimiz döyüş əməliyyatlarında operativ-taktiki üstünlüyə nail olmaq imkanı əldə etdilər.



Müxtəlif qoşun növlərində plana uyğun keçirilən təlimlərdə də yaddaqalan anlar yaşanıb, uğurlar əldə edilib. Mühəndis-istehkam bölmələri ilə taktiki təlimin keçirilməsində əsas məqsəd mürəkkəb əməliyyat şəraitində mühəndis təminatının yerinə yetirilməsi ilə bağlı komandirlərin bacarığını və bölmələrin idarə edilməsini praktiki fəaliyyətdə yoxlamaq, qərargahların döyüş vərdişlərini təkmilləşdirmək, yaranmış şəraitə uyğun əsaslandırılmış qərar qəbul etmək, vəziyyəti qiymətləndirmək idi. Həmçinin şəxsi heyətin bölmələr tərkibində mühəndis təminatı tapşırıqlarının yerinə yetirilməsi zamanı mənəvi-psixoloji dözümlülüyünü artırmaq da əsas məqsədlərdən olub.

Kimya Qoşunlarının döyüş hazırlığının yoxlanılması məqsədilə keçirilən təlimlərdə də qərargahların döyüşü idarəetmə vərdişləri təkmilləşdirilib, qarşılıqlı əlaqənin təşkili üzrə təcrübə mübadiləsi, həmçinin şəxsi heyətin bölmələr tərkibində kimya təminatı tapşırıqları praktiki icra edilib. Bundan əlavə, bir-birinin ardınca komanda-qərargah hərbi oyunları, birlik və birləşmələrdə döyüş atışlı taktiki təlimlər keçirilib, hərbi qulluqçuların peşəkarlığının və nəzəri biliklərinin artırılması, praktiki vərdişlərinin möhkəmləndirilməsi məqsədilə hazırlıq məşğələləri təşkil edilib, şəxsi heyətə real döyüş şəraitinə uyğun vəziyyətdə zirehli texnikaların idarə edilməsi, manevr imkanları öyrədilib, silahlanmada olan, eləcə də yeni qəbul edilmiş müxtəlif çaplı silahlardan praktiki istifadə etmək bacarıqları təkmilləşdirilib.

Ehtiyatda olan zabitlərin, çavuş və əsgərlərin də cəlb edilməsi ilə təlimlərin baş tutması Azərbaycan Ordusunun daha bir yeni uğuru idi. Həmin təlimlərdə ehtiyatda olan hərbi vəzifəlilərə praktiki məşqlər keçməklə yanaşı, Silahlı Qüvvələrimizdə həyata keçirilən islahatlardan danışılıb, ən müasir silah və t exnikanın tətbiqi ilə bağlı dərslər keçirilib və praktiki atışların icrası yerinə yetirilib.

Müdafiə Nazirliyinin sifarişinə uyğun olaraq, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə və şöbələri tərəfindən 13 mindən artıq ehtiyatda olan hərbi vəzifəli təlimlərə çağırılıb. Müdafiə naziri ehtiyatdan çağırılan şəxsi heyətə, təlim toplanışında mütəşəkkil qaydada iştirak etdiklərinə, bir an belə tərəddüd etmədən Vətənin müdafiəsi üçün şərəf və vicdanla yenidən xidmətə cəlb olunmağa hazır olduqlarına görə təşəkkür edib. Görüşdə nazir bildirib ki, onlar bu təlimlərdə iştirak etməklə döyüş qabiliyyətlərini, hərbi ixtisaslarını və təcrübələrini təkmilləşdirmək, silahlanmada olan yeni, müasir və modernləşdirilmiş silah və hərbi texnikanın nümunələri ilə yaxından tanış olmaq, onun düzgün istifadəsi və istismarı qaydalarını bilmək imkanı əldə ediblər.

Təlimlərdə jurnalistlərin canlı izləməsi və reportajlar hazırlaması Silahlı Qüvvələrdə baş verən yeniliklərin bariz nümunəsi idi. Qeyd edək ki, Müdafiə Nazirliyinin dəstəyi ilə media mənsubları üçün döyüş bölgəsində yerləşən hərbi hissədə təlimlərin təşkil edilməsi də ordudan yazan jurnalistlərin peşə hazırlığında mühüm rol oynayır.

Təlimlərdə Ağsaqqallar Şurasının, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının, Qadınlar Şurasının və digər ictimai qurumların nümayəndələrinin şəxsi heyətlə görüşləri keçirilib. İctimaiyyət fəalları ilə görüşən Müdafiə naziri general-polkovnik Zakir Həsənov Vətən və xalq qarşısında hər kəsin məsuliyyətinə diqqət çəkərək bu tədbirdə iştirak etdiklərinə görə onlara təşəkkürünü bildirib.

Müdafiə Nazirliyinin rəhbərliyi və cəbhəboyu rayonların icra hakimiyyətləri başçılarının iştirakı ilə keçirilən xidməti müşavirədə qarşılıqlı fəaliyyətlərin təhlil edilməsi, hərbi əməliyyatlar zamanı mülki təşkilatlarla hərbçilərin birgə fəaliyyət planlarının dəqiqləşdirilməsi, ictimaiyyətlə əlaqələrin gücləndirilməsi məqsədilə konkret addımların atılması üçün planların hazırlanması da yenilik kimi qəbul edilməlidir.

Silahlı Qüvvələrimizin döyüş hazırlığı prosesində diqqət çəkən addımlardan biri də Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, hərbi hissə və bölmələrdə müxtəlif hərbi peşələr üzrə "Ən yaxşı heyət" və ya "Ən yaxşı mütəxəssis" adı uğrunda yarışların keyfiyyətinin artırılmasıdır.

Daha bir nailiyyət hərbi dənizçilərimizin və tankçılarımızın beynəlxalq hərbi oyunlarda uğurlu iştirakıdır. Bu yarışlara qatılmağın özü də uzunmüddətli və böyük zəhmət tələb edən təlim prosesidir. Belə ki, beynəlxalq yarışlarda iştirak edəcək heyətlərin seçilməsi üçün Müdafiə Nazirliyinin tank bölmələrində əvvəlcə bölük səviyyəsində, sonra isə birləşmə və birlik səviyyəsində təlim-məşqlər, müsabiqələr keçirildi. Sonda Silahlı Qüvvələr səviyyəsində ən yaxşı sürücü-mexanik, tuşlayıcı-operator və tank komandiri adı uğrunda yarışlar təşkil olundu. Beynəlxalq hərbi yarışlarda iştirak edəcək heyətlər də məhz müxtəlif səviyyəli təlimlərin, yarışların qalibləri sırasından seçilib. Danılmaz faktdır ki, tank heyətlərinin ilk dəfə beynəlxalq səviyyəli oyunlara qatılmalarına baxmayaraq, qürurverici nailiyyətlər əldə etməsi tankçılarımızla yanaşı, onları hazırlayan mütəxəssislərin də peşəkarlığından xəbər verir.

"Beynəlxalq Ordu Oyunları-2016" yarışları çərçivəsində keçirilən "Xəzər kuboku - 2016" yarışlarında hərbi dənizçilərimiz 2-ci yeri tutub.

Müdafiə nazirinin tapşırığına əsasən, təlim mərkəzlərinin, poliqonların təkmilləşdirilməsi, müasir dövrün döyüş tələblərinə uyğunlaşdırılması və yeni təlim mərkəzlərinin istifadəyə verilməsi gələcəkdə döyüş meydanlarında ordumuzun daha parlaq qələbələr əldə etməsinə zəmin yaradacaq ən əsas amillərdən biridir. Axı hər təlim hərbçilər üçün döyüş akademiyasıdır.

**İsa İSMAYILOV,**
**hərbi jurnalist**

*Ön xətdən reportaj*

# Əsən yellər yüksəkliyə tələsir



...Yayla payızın ayrıcında ağac budaqlarında qərarlaşa bilməyən külək nə əsən kimi əsir, nə kəsən kimi kəsir...

Həvəs, maraq öz yerində, torpaqlarımızı müdafiə edənlərlə bu və ya digər mövzuda söhbətləşməyi, əsasən Vətəndən, Vətənin dünənindən bu gününə yük olan ağrılarından, ağrısız sabahlarından danışmağı həmişə vəzifə borcu bilmişəm. Bu borcun bələdçiliyiylə düşmənlə təmas xəttindəki yüksəkliklərdən birinə, əsgərlərin yanına tələsirik. Bir azdan deyəcəyim kəlmələr haqqında deyil, eşidəcəklərim haqqında düşünürəm. Elə məhrəm, elə cazibədar, elə şirin düşüncələrdi ki...

Əsən yellər zaman məhdudiyyətindən sıyrılıb yüksəkliyə - dağa, təpəliyə tələsməlidi. Təbiətin öz qanunları var: məqamında əsəcək də, tələsəcək də...

Yollar bizi yüksəkliyə aparır...

- Hərbi hissənin özündə olduğu kimi mövqelərdə də yüksək səviyyəli məişət şəraiti yaradılıb, - bizi müşayiət edən zabit Emin Vəliyev bildirir. Onun məlumatlarını ilkin təəssüratlar hesab edirəm. Az sonra təsəvvür elədiklərimi görəcəm, gördüklərim mənə qədərsiz könül xoşluğu verəcək: səliqəli əsgər kazarması, yüksək zövqlə tərtib edilmiş ideoloji otaq, xalqımızın tarixi keçmişini, hərb tariximizi əks etdirən informatik guşələr, səliqəli yeməkxana...

...Göy üzündə görünən təkəmseyrək boz buludların özü də, düzümü də heç könlümə yatmır; gəzərgi buludlar Günəşin üzünü örtməyə meyillənib. Günəşin istisindən çəkindiyini, göz açıb yumunca dağıldığını mən də görürəm, döyüş növbəsinə gedən, döyüş növbəsindən qayıdan əsgərlərimiz də. "Bu əsgərlərin Vətən sevgisində, qətiyyətində, cəsarətində Günəş xisləti var" - qürurdan sinəm ürəyimə darlıq eləyir. Ürəyimizin təpərinə təpər, gözlərimizin nuruna nur, sabahlarımıza uğur olan Lələtəpəni, Bayraqtəpəni xatırlayın. Günəş xislətini Şuşada da, Laçında da, Kəlbəcərdə də, Ağdamda da, Füzulidə də, Cəbrayılda da, Qubadlıda da, Zəngilanda da görəcəyik...

"Daş düşdüyü yerdə ağır olar", - deyiblər; daşlı-çınqıllı səngər bizi müşahidə məkanına aparır. İrili-xırdalı daşlar mehrləşdiyi əsgərlərin ayaq səslərini yaxşı tanıyır. Onların səsinə boylanır, hərdən ahəngdar, hərdən qarışıq.

...Sanılı saniyələr ötüşüncə göy üzü üzə gülür. Əsgərlərin əhatəsində qarşı-qarşıya dayanmış iki təpəliyə, iki təpəliyə səngər olmuş iki məfkurəyə, iki niyyətə baxıram: sevgi və hiddət. Biri Vətənimizi qoruyanların səngəridi, biri işğalçıların. Qarşı təpənin canına bir sarılıq daraşıb. Əsgərlərimizin



qəlbində sevgi ilə hiddət qoşa yaşamaqdadı. Bu sevgi Vətən sevgisidi, bu sevgi Vətənin arzuladığı sevgidi.

- Bura vətənsevərlərin səngəridi, ora işğalçıların, - zabit Emin Vəliyev düşüncələrimi duyubmuş kimi belə deyir. Yüksəklikdə müqəddəsliyin keşiyində dayananların əhatəsində eşitdiklərimdən ürəyim tellənir. Zabitin qürurlandığını da sezmək çətin deyil.

- Ermənilərin tərpənişi buradan tam nəzarətdə saxlanılır. Gücümüzə yaxşı bələd olan düşmən bəzən atəşkəsi pozmağa cəsarət eləsə də, bu, davamlı olmur. Qısa müddətdə susdurulur.

Səsində dönməz bir inam var. Bu inamın bir çaları da aprel döyüşlərində zəfər qazanan əsgərlərin cəsarətini, şücaətini, qəhrəmanlığını davam etdirməyə qadir olan əsgərlərlə bağlıdı. Söhbətimizi bu dönməz inamın işığında davam etdiririk. Söz sözü çəkir, söz sözə söykək olur. Qələbə arzusuyla Vətən deyirik, torpaq deyirik, əsgər deyirik.

- Silahlı Qüvvələrin gücü, qüdrəti təkcə silahlarla deyil, həm də o silahların etibar edildiyi əsgərlərlə bağlıdır, - deyirəm.

Bu kəlmələri həmsöhbət olduğum zabitlərə başqa bir yüksəklikdə də demişdim, Lələtəpədə də, Murovdağda da, Gədəbəydə də, Alagöllərdə də, ... Həmişə könül xoşluğu, ehtiramımı təlatümə gətirən cavab eşitmişəm: Silahlı Qüvvələrimizdə aparılan islahatlar ordumuzun gücünü artırıb, ordumuz Cənubi Qafqazda ən güclü ordudur. Təbii ki, bunun bir səbəbi də əsgər amilidir.

Bu yüksəklikdə çözülən mətləblər başqa zabitləri də duyğulandırır. Söhbətimizi dinləyən, döyüş növbəsinə gedib qayıdan əsgərləri gözdolusu süzən, baxışlarında arzuladığım şükranlıq görünən zabit Emin Əkbərov da söhbətimizə müdaxilə edir:

- Elədir, - deyir. - Ordu kifayət qədər yüksək hərbi biliyə, gərəkli səriştəyə malik olan zabitlərlə, o zabitlərin öyrətdiyi, hazırladığı əsgərlərlə güclüdü. Xidmət edə-edə öyrənən, öyrənə-öyrənə xidmət edən əsgərlər Vətənin toxunulmazlığına sipərdi.

Öyrənirəm ki, bu hərbi hissədə də çox dəyərli bir ənənə yaranıb. Daha təcrübəli əsgərlər xidmətə təzə başlayanlara məsləhətlər verir, onların



hərbi səriştəyə yiyələnməsinə, bu və ya digər atıcı silahın istismar xüsusiyyətlərini mükəmməl mənimsəməsinə köməyini əsirgəmir. Bunu əsgər dostluğu üçün vasitə də adlandırmaq olar.

- Heç birinə "filan əsgərin filan vərdişi öyrənməsinə kömək elə" - deməyə ehtiyac olmur. Bunu əsgərin özü hiss edir, öyrətməyə özü təşəbbüs göstərir, - əsgərinə inanan (və güvənən) zabitin könül xoşluğu hiss ediləndir.

Əsgər Mehman Şirinov komandirinin icazəsiylə söhbətə qoşulur:



- Hamının qavrama səviyyəsi eyni olmur. Xidmətə təzə başlayanda bizim də çətinliklərimiz olurdu. Zamanında bizi öyrədiblər, biz də öyrədirik. Atıcı silahların sirlərini mükəmməl mənimsəməyən bircə əsgər də olarsa, bu, mövqenin müdafiəsini zəiflədə bilər.

Əsgərin dedikləri komandirinə də, mənə də könül xoşluğu verir. Budur, Azərbaycan əsgərinin hərbi xidmətə münasibəti! Budur, Azərbaycan əsgərinin əsgər yoldaşına, əsgər yoldaşının timsalında Vətənə sevgisi!..

Əsgər Mehman Abdullayev də bir qədər çəkingənliklə söhbətə qoşulur:

- Nəyisə bilmirsənsə, yaxud mükəmməl mənimsəməyibsənsə, ya komandirindən, ya da daha təcrübəli əsgər yoldaşından soruşmalısan. Nəyisə bilmədiyini kiminsə hiss eləyəcəyi məqamı gözləmək böyük qəbahətdir. Bu qəbahət xidmətə məsuliyyətsizlikdir.

- Haqlısan, əsgər, tamamilə haqlısan, - deyirəm. Əlim onun çiyninə enir. Bu incə ünsiyyəti, təması, xoş ovqatı sezincə qaşları çatılan əsgərin ürəyindən keçənlər mənim də, zabitlərin də, başqa əsgərlərin də baxışını qarşı tərəfə cəmləyir. Baxıram və düşüncələrim bir mətləbə köklənir: düşmən belə əsgərlərin dayandığı mövqeyə yaxın düşə bilməz. Əsgərlər də o səmtə baxır, yəni, "Səndən ötrü can verməyə cümlə qadiriz, Vətən!"

Azərbaycan əsgərinin obrazını bu məqam ümumiləşdirir, şübhəsiz.

- Torpaqlarımız işğaldan azad ediləcək. Biz də qalib əsgərlərin sırasında olmaq istəyirik, - müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu İsmət Şəmilov deyir.

Qürrələnirəm. Apreldə Lələtəpədə qürrələndiyim kimi qürrələnirəm:

- Azərbaycan əsgərinin səngər həyatının qayəsi məhz bu istəkdi.

- Elədir, - zabitlər Emin Vəliyev də, Emin Əkbərov da qənaətimi təsdiqləyirlər. Emin Vəliyevin dedikləri bayaqdan bəri söhbətimizin başlıca qayəsi olan bir mətləbin sonluğu olur: "Silahlı Qüvvələrimizdə aparılan islahatlar ordumuzun gücünü kifayət qədər artırdı. İndi ordumuz Cənubi Qafqazda ən güclü ordudur. Ali Baş Komandanın, Müdafiə nazirinin döyüş bölgələrinə hər gəlişi, əsgərlərlə bilavasitə səngərlərdə söhbət eləməsi şəxsi heyətin mənəvi hazırlığının təminatçısı olub. Sülh danışıqları baş tutmasa, Azərbaycan əsgəri düşmənin səngərlərini dövlət sərhədlərimizəcən çığnayıb keçəcək!.."...

"Yaxın vaxtlarda Cıdır düzündə yazacağım reportajın qəhrəmanları sırasında sizi də görmək istərdim..." - deyirəm.

Emin Vəliyev inamla dillənir:

- Mütləq!..

Göy üzü üzə gülür...

Göy üzündə qanad çalan qartalı görüncə ürəyim tellənir. Dönüb əsgərlərə baxıram; qanad çalan qartal qartal baxışların da diqqətindən yayınmayıb...

Sərin-sərin əsən yellər yüksəkliyə tələsir...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**N.PƏNAHOVUNDUR**

Məişət

# Sevgi ilə bişirilən çörək



*Çörək... Nemətlərin ən şirini... Hər xalqın, hər millətin özünəməxsus zəngin mətbəxində əvəzsiz yer tutan, süfrələrin tacı olan çörəyin Azərbaycanda 12 min illik tarixi olduğu hesab edilir. Əsrlərdən bəri bolluq və bərəkət rəmzi sayılır.*

"N" hərbi hissəsində olarkən dünyanın bütün ətirlərini arxada qoyan, özünəməxsus qoxusu ilə adamı bihuş edən isti çörək ətri duydum. Sual dolu baxışlarım şəxsi heyətlə iş üzrə şöbənin zabiti Adil İsayevə dikiləndə o, son illər orduda sosial şəraitin yaxşılaşmasından qürurla söz açdı. Bildirdi ki, hərbi hissədə artıq müasir tələblərə cavab verən çörək sexi fəaliyyət göstərir. "Hər gün çörək bişirilir. Bu, dövlətimizin orduya, zabitinə, əsgərinə olan diqqətinin, qayğısının bariz nümunəsidir."

Tanışlıq üçün sexə daxil olarkən burada qızğın iş gedirdi. Hər kəs iş başında idi. Sex rəisi gizir



Ceyhun Rzayev sobadan yenicə çıxan və anbara yığılan çörəklərin keyfiyyətinə və saxlanılması üçün xüsusi qablara yığılmasına nəzarət edirdi.

Gizirlə söhbətdən öyrənirəm ki, 1998-ci ildə müddətli həqiqi hərbi xidmətdə olub. Vətənimizə sevgisi və hərb sənətinə marağı onun hərbi peşəni seçməsinə səbəb olub. Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində Gizirlər Məktəbini bitirdikdən sonra 2002-2009-cu illərdə ön cəbhədə, İraqda, Kosovoda və altı dəfə Əfqanıstanda sülhməramlı missiyanı yerinə yetirmiş gizir Rzayev "N" hərbi hissəsində xidmətini davam etdirir.

- Sex Avropa standartlarına cavab verən müasir avadanlıqlarla təchiz olunub, - deyir gizir. - Burada iş səhər erkən saatlardan başlayır. Müdafiə nazirinin müvafiq əmri ilə məişət-təsərrüfat işlərinə peşəkar mülki şəxslər cəlb olunublar. Əla növ undan çörək, əsgərlərimizə nahar üçün kişmişli və cemli bulkalar, bayram günlərində hətta biskivit və qoğal da hazırlanır. Bütün bunlar əsgərlərimizə dövlətimizin qayğısının göstəricisidir.

Qarabağ müharibəsi veteranı Səfiyar Həsənəliyev isə baş çörəkçidir. 1992-ci ildə Vətənimizin qanlı-qadalı günlərində ordu sıralarına qoşulub.



Zəngilan, Beyləqan, Ağdam və Murov istiqamətində vuruşub. 2012-ci ildən təqaüddədir. Kiçik oğlunun müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu olmasından və ordumuzun aprel zəfərindən qürurlandığını bildirən baş çörəkçi ömrünün bu çağında da zəhmətə qatlaşmaqdan usanmır. "Düşünəndə ki, əsgərimizin qulluğundayam, yaşamağa sevgim və həvəsim artır. Onların hər birini özümə yaxın bilirəm. Əsgər valideynlərinə də demək istəyirəm ki, övladlarından heç narahat olmasınlar. Dövlətimiz, ordumuzun rəhbərliyi onların qayğısına yetərincə qalır."

Dünyanın ən dadlı nemətini hazırlayan çörəkçilər Şəfiqə Əhmədova və Bahar Rəcəbova də söhbətlərində bildirdilər ki, süfrələrin şahı olan çörəyi hazırlamaq, üstəlik də əsgərlərimiz, zabitlərimiz üçün hazırlamaq onlara ikiqat qürur verir. "Biz anayıq. Bir ananın övladı üçün hazırladığı bütün qidalarda ayrı bir dad, ləzzət olur. Bu dadın, ləzzətin adı "ana sevgisi"dir. Bütün əsgərlər bizim övladlarımızdır. Onlar üçün hazırladığımız qidalarda isə bu sevgi birə min artır."

Bahar xanım oğlu Əliəşrəfin 11-ci sinifdə oxumasından, Vətənimizə müqəddəs övlad borcunu verməyə tələsməsindən və bir ana olaraq onu könül rahatlığı ilə hərbi xidmətə yola salacağından fəxrlə danışdı.

Sobadan çıxan isti, ətirli çörəkdən dadanda ilk öncə ordunu daim diqqətdə saxlayan Ali Baş Komandanımıza, orduya peşəkarların cəlb edilməsinə təşəbbüs göstərmiş Müdafiə nazirimizə bir zabit, sabahın əsgər anası kimi minnətdarlıq hisslərini ifadə etməkdə söz tapmıram.

**Leytenant Günay TAĞIYEVA, "Azərbaycan Ordusu", fotolar çavuş N.PƏNAHOVUNDUR**

# Hərbi yeniliklər, ənənələr

## "Vıxlop" snayper tüfəngi



"Vıxlop" Rusiyanın səssiz iriçaplı snayper tüfəngidir. İlk dəfə Moskva şəhərində keçirilən "İnterpolitex-2005" sərgisində nümayiş etdirilib. Onun əsas təyinatı az səslə düşmən texnikalarını, həmçinin canlı qüvvəsini məhv etməkdir. Silahın plasmas maqazinində beş güllə yerləşir. Onun zərbə-buraxıcı mexanizmi çaxmaqlıdır. Tüfəngin qatlanan (yığılan) ikiayaqlı dayağı vardır. Onun əsas nişangahı optik, köməkçi nişangahı isə mexanikidir. Snayper tüfəngindən atəş açmaq üçün 12.7 mm çaplı patronlardan istifadə edilir. Çəkisi 6.5 (optik nişangahsız və səsboğucusuz) kiloqram, uzunluğu 1125 millimetr (səsboğucu ilə), 622 millimetr (səs boğucusuz), eni 45 millimetr təşkil edir. Güllənin ilkin sürəti saniyədə 290-295 metrdir. Nişangah uzaqlığı 600 metrdir.



## Pilotsuz uçan unikal aparat

AirMule İsrailin Urban Aeroyautics şirkəti tərəfindən hazırlanmış pilotsuz uçan aparatdır. Bu aparat 2008-ci ildən ölkənin silahlanmaya ehtiyacını təmin etmək üçün hazırlanır. 2011-ci ilin əvvəlində onun ilk nümunəsi 10 saata qədər uçuşu davam etdirib. Uçuş tam avtonom rejimdə həyata keçirilib. Meqido aerodromunda keçirilən sınaq zamanı AirMule aparatı bir nöqtədən digər nöqtəyə müvəfəqiyyətlə çatmağa qadir olduğunu sübuta yetirib.

AirMulenun göyərtəsində iki pər (propeller), daha ikisi də quyruq hissəsində yerləşdirilib. Aparatın uçuş çəkisi 1.4 tondur və bununla o göyərtəsinə 227 kiloqram çəkidə yük götürməyə qadirdir. O, hava ərazisində beş saata qədər qala və sürəti saatda 180 kilometrə qədər artıra bilir.

**Hazırladı: Svetlana YUSUBOVA, "Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### UNICEF: dünyada 28 milyon uşaq müharibələr səbəbindən evlərini tərk edib



BMT-nin Beynəlxalq Uşaq Fondu (UNICEF) dünyada 28 milyon uşağın müharibələr səbəbindən evlərini tərk etmək məcburiyyətində qaldığını bildirib.

Təşkilat təqdim etdiyi məruzədə qaçqın durumuna düşən uşaqların sayının son 10 ildə təxminən iki dəfə artdığına diqqət çəkib. Sənəddə evlərini tərk etmək məcburiyyətində qalan 28 milyon uşağın 10 milyonunun mühacir statusu aldığı bildirilir. Məruzəyə əsasən, mühacir uşaqların 45 faizi Suriya və Əfqanıstandandır.

### Şimali Koreya tarixində ən güclü nüvə sınağını keçirib



Koreya Xalq Demokratik Respublikası növbəti, beşinci nüvə sınağını keçirib.

Bu barədə Yonhap agentliyi Koreya Respublikasının Müdafiə Nazirliyinin məlumatına istinadla xəbər yayıb. "Mövcud məlumatlara əsasən deyə bilərik ki, Şimali Koreyada nüvə sınağı keçirilib", - deyə hərbçilərin bəyanatında bildirilir. Nazirlik partlayışın gücünün 10 kiloton olduğunu açıqlayıb. Hərbçilər qeyd edirlər ki, hazırkı sınaq indiyədək ən güclüsü olub. Müqayisə üçün bu ilin yanvarındakı nüvə partlayışının gücünün 6 kiloton olduğu bildirilir.

Vəziyyətlə əlaqədar Koreya Respublikasının Təhlükəsizlik Şurasının iclası keçiriləcək. Hökumət bu məsələni müvafiq beynəlxalq qurumlarla müzakirə etməyi nəzərdə tutur.

### Türkiyə qış vaxtına keçməyəcək



Türkiyə hökuməti qış vaxtına keçidin ləğv olunması barədə qərar qəbul edib.

Rəsmi qəzetdə dərc olunmuş sənədə əsasən, "günəş enerjisindən istifadə edilməsinin artırılması məqsədi ilə" saatların əqrəbləri bundan sonra geri çəkilməyəcək. Bu qərarın Türkiyə Energetika və Təbii Resurslar Nazirliyinin təklifi əsasında qəbul edildiyi bildirilir.

Xatırladaq ki, Azərbaycanla Türkiyə arasında vaxt fərqi bundan sonra il boyu bir saat olaraq qalacaq.

### Meksikada cinayətkarlar polis helikopterini vurub



Meksikada cinayətkar qruplaşma üzvləri tərəfindən vurulan helikopterin qəzaya uğraması nəticəsində 4 nəfər həlak olub.

Polis helikopteri ölkənin cənub-qərbində yerləşən Miçoakan ştatında çətin keçilən ərazidə xüsusi əməliyyatda iştirak edirdi. Hüquq mühafizə orqanlarının əməkdaşları yerli qruplaşma başçılarını təqib etməyə çalışırdılar.

Hadisənin təfərrüatları barədə məlumat verilmir. Həyatını itirənlərdən üçünün polis zabiti, digərinin isə pilot olduğu bildirilir.

### Almaniya müsbət ticarət saldosuna görə dünyada birinci olacaq



Almaniyanın müsbət ticarət saldosu 2016-cı ildə 310 milyard dollar ilə rekord səviyyəyə yüksələrək ən böyük müsbət ticarət saldosuna malik olan Çini geridə qoyacaq.

Münxen Mərkəzi İqtisadiyyat İnstitutu olan IFO-nun açıqlamasında ilin birinci yarısında Almaniyanın ixracatının idxalatı 159 milyard dollar üstələdiyi və bunun əsasən Avropanın digər ölkələri ilə aparılan ticarət əlaqələri hesabına baş verdiyi bildirilib. İnstitut açıqlamasında müsbət ticarət saldosunun ümumi daxili məhsulun 8.9 faizinə bərabər olacağını bəyan edib.

**AZƏRTAC-ın materialları əsasında**

*Əks-səda*

# Elə xidmət edin ki...

"Azərbaycan Ordusu" qəzetinin 3 sentyabr 2016-cı il tarixli sayında polkovnik Abdulla Qurbaninin təqdim etdiyi bir əsgər anasının müraciət-məktubunu mən də həyəcanla oxudum. Bir hərbçi kimi, bir vətəndaş kimi hadisə məni də təsirləndirdi. Oğul böyüdən ana, onu böyük sevgilərlə hərbi xidmətə yola salan ana, xoş sorağını eşidəndə bir ürək tutumunca qürurlanan ana hər birimizi özünə həmdərd bilir. Təsəlli olaraq nə deyəsən?..



Məktəblə ailənin qarşılıqlı əlaqəsi sonralar ailə ilə hərbi hissənin qarşılıqlı əlaqəsi ilə tamamlanır. O ana oğlunun xarakterinə bələd deyildimi, oğlunun əsgər yoldaşlarını, komandirlərini umaraq qınayan ana özünü də qınayır.

Ana yazır ki, oğlu on ay nümunəvi xidmət edib. Təbii ki, belə xidməti komandirlər - zabitlər də təqdir edib, xidmət yoldaşları da. Nə oldu bəs? Vətən necə unuduldu? Döyüş növbəsi necə yaddan çıxdı? Düşmənə atılası güllə necə özünə dəydi? Barmağı tətikdə titrəmədimi?

Vətəni belə sevməzlər, Vətənə belə xidmət eləməzlər. Əsgərin ömrü təkcə özünə məxsus deyil, həm də Vətənə məxsusdu. Vətənə məxsus olan ömürə qıymaq cinayətdir. O əsgər cinayət eləyib...

O anaya üz tutaraq deyirəm: sağ ol ki, belə bir mətləblə bizə müraciət eləyibsiniz. Siz oğul itiribsiniz, Silahlı Qüvvələrimiz bir əsgərini. Bu sizə də, bizə də böyük təsir göstərdi. Biz də əsgər itkisinə görə təəssüflənirik. Siz də, biz də istəyirik ki, bu kimi hallar təkrarlanmasın...

Çağırışçı əsgərlərin valideynlərinə müraciət edirəm: oğlunuzun tərbiyəsiylə, dünyagörüşüylə ciddi məşğul olun. Bunu sizlərdən Vətən tələb edir.

Əsgərlərə müraciət edirəm. Elə xidmət eləyin ki, adınız el-obanızda da, oxuduğunuz məktəbdə də, tərxis olunduqdan sonra hərbi hissədə də ehtiramla çəkilsin...

**Polkovnik-leytenant**
**Murad MURADOV**

Tovuz rayonunun Aşağı Öysüzlü kəndindənəm. 2013-2014-cü illərdə həqiqi hərbi xidmətdə olmuşam. İlk vaxtlar müəyyən çətinliklərlə üzləşsəm də, komandirlərimin, təcrübəli əsgər yoldaşlarımın məsləhətləri köməyim oldu. Mən də hərbi xidmətə alışdım. Hərbi Nizamnamələrin tələblərinə əməl etmək əsgərin bilavasitə vəzifə borcudur. Digər tərəfdən, Vətəni qəlbən sevməyən əsgər yaxşı əsgər ola bilməz. Təvazökarlıqdan uzaq olsa da, bildirim ki, Vətəni ürəkdən sevərək yaxşı əsgər oldum. Elə bu sevgiyə görə yenidən hərbi xidmətə qayıtdım. İndi müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusuyam. Məsuliyyətim bir qədər də artıb. Müəyyən mənada təcrübəliyəm, gənc əsgərlərə müəyyən məsləhətlər verə bilərəm. Təbii ki, bu məsləhətlər hərbi xidmət üçündür.

Qəzetinizin 3 sentyabr 2016-cı il tarixli sayında dərc edilmiş bir əsgər anasının müraciət-məktubu məni kövrəltdi də, hiddətləndirdi də. Bir əsgərin ölümünə kövrəldim, bir ananın ürəyinə axan göz yaşlarına görə kövrəldim, o əsgərə hiddətləndim. Nənəm deyərdi: "Dərdindən ölənin dərdindən öl". O əsgər neylədi, - ucuz, urvatsız ölümüylə əsgər şərəfini ləkələdi.

Əsgər şərəfi müqəddəsdir. O əsgər də hərbi and içəndə "Vətənə görə canımdan da keçərəm" - demişdi. Canından keçdi, amma Vətənə görə yox, onu sevməyən qıza görə. O, cılız hisslərinə təslim oldu. Sevmək günah deyil, sevgisinə görə vəzifə borcunu unutmaq cinayətdir. O ananın yaraları belə hallar olmayanda qaysaqlayacaq.

**İsmət ŞƏMİYEV,**
**müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu**

# İdman

## Rio-de-Janeyroda XV Yay Paralimpiya Oyunlarının açılış mərasimi keçirilib



Sentyabrın 8-də Bakı vaxtı ilə saat 02:00-da Braziliyanın Rio-de-Janeyro şəhərindəki "Marakana" stadionunda XV Yay Paralimpiya Oyunlarının möhtəşəm açılış mərasiminə start verilib.

XV Yay Paralimpiya Oyunlarında idmanın 22 növü üzrə 528 dəst medal uğrunda yarışlar keçiriləcək. Bu, "London-2012" Yay Paralimpiya Oyunları ilə müqayisədə 25 dəst çoxdur. Medal sayının artırılması yarışlarda qadın idmançıların geniş heyətlə çıxışı ilə əlaqədardır.

Azərbaycan XV Yay Paralimpiya Oyunlarında 24 idmançı ilə təmsil olunur. Paralimpiyaçılarımız "Rio-2016"ya idmanın 6 növü üzrə 41 lisenziya qazanıblar. İdmançılarımız cüdo, atletika, pauerliftinq, üzgüçülük, güllə atıcılığı və kamandan oxatma yarışlarında mübarizə aparacaqlar.

Braziliyanın dövlət himninin səsləndirilməsindən sonra yığma komandaların təntənəli keçidi olub.

Açılış mərasimində Azərbaycanın paralimpiya yığmasının keçidi zamanı bayrağımızı ikiqat Paralimpiya çempionu, "Bakı-2015" birinci Avropa Oyunlarının çempionu və milli komandamızın kapitanı İlham Zəkiyev aparıb.

## Bayram Mustafayev XV Yay Paralimpiya Oyunlarında Azərbaycana ilk medalı qazandırıb



Rio-de-Janeyroda təşkil olunan Paralimpiya Oyunlarında 66 kiloqram çəki dərəcəsində mübarizə aparan cüdoçumuz Bayram Mustafayev Azərbaycana ilk medalı qazandırıb.

Birinci mərhələdən azad olan cüdoçumuz ilk qələbəsini braziliyalı Halison Oliviera Boto üzərində qazanıb. Sonra yaponiyalı rəqibi Satoşi Fujimotoya qalib gələn cüdoçumuz finala yüksəlib. Həlledici görüşdə cüdoçumuz Özbəkistan idmançısı Utkirjon Nigmatova məğlub olaraq "Rio-2016"nın gümüş medalı ilə kifayətlənib.

## İkinci Dünya Köçəri Oyunlarında Azərbaycan idmançıları 15 medal qazanıblar



Qırğızıstanın İssık-Kul gölünün sahilindəki Çolpon-Ata şəhərində başa çatan ikinci Dünya Köçəri Oyunlarında Azərbaycan idmançıları 4 qızıl, 4 gümüş, 7 bürünc medal qazanaraq komanda hesabında beşinci yeri tutublar.

Yarışlarda Qırğızıstan 79 medalla birinci, Türkmənistan 24 medalla ikinci, Qazaxıstan 38 medalla üçüncü, Rusiya isə 27 medalla dördüncü yeri tutub.

Bu böyük idman bayramında dünyanın 62 ölkəsindən 500-dən çox idmançı iştirak edib. Oyunlarda 23 idman növü üzrə yarışlar keçirilib.

## Çimərlik futbolu üzrə Azərbaycan millisi Türkiyə yığmasına qalib gəlib



Çimərlik futbolu üzrə "FİFA dünya kuboku-2017" turnirinin İtaliyanın Yezolo şəhərində təşkil olunmuş Avropa komandaları arasında seçmə mərhələsinin ikinci raundunda Azərbaycan milli komandası üçüncü oyununu keçirib.

Türkiyə yığması ilə qarşılaşan millimiz 3:1 hesabı ilə qələbə qazanıb. Komandamızın qollarını Vaqif Şirinbəyov, Asif Zeynalov və Əbdül Əliyev vurublar.

**AZƏRTAC-ın materialları əsasında**

*Maraq dünyamız*

# Tarixdə sui-qəsdlər

*Sui-qəsdlərin tarixi də insanlıq tarixinin yaşı ilə ölçülür. Roma imperatoru Yuli Sezar da sui-qəsdin qurbanı olub. Tarixdə bu cür sui-qəsdlərin sayı onlarladır. Onların bəzilərini oxucularımıza təqdim edirik.*

**Yuli Sezar - eramızdan əvvəl 49-44-cü illərdə Roma imperatoru**

Yuli Sezar çox xəyanətlərin şahidi olmuşdu. Ancaq o, belə bir xəyanəti heç vaxt gözləmirdi. Onun üzərinə düşmənləri deyil, yaxın bildiyi dostları gəlirdi. Qatillər sarayda qarşılarına çıxanları parçalamaqdan başqa bir şey düşünmürdülər. Onların amansızcasına məhv etmək istədikləri adam bir vaxtlar dağılmaqda olan Romanın fəxri sayılırdı. Sezar öz taxtında çırpınır, xəncər zərbələrindən xilas olmaq istəyirdi. Çətinliklə dizi üstə qalxa bildi və bu vaxt onu xəncərlə vuran şəxslərdən birini gördü. Bu onun ən yaxın silahdaşı Brut idi. Brutu görən kimi sanki Sezarın dili birdən-birə açıldı və yalnız "Brut, sən də?" deyə bildi. Ancaq Brut onu eşitmədi. Sonradan məlum oldu ki, Sezara 35 xəncər zərbəsi vurulub. Roma tarixində Senatda görünməmiş bir hadisə baş vermişdi. Bütün Romanı qorxu içində saxlayan, zahirən özünü demokrat kimi göstərən, daxilən isə qanlı bir diktator olan Sezar taxtında qətlə yetirilmişdi.

**Mohandas Karamçand Qandi (1869-1948) - Hindistanın passifist siyasətçisi və düşüncə adamı**

Mahatma Qandi hind milli azadlıq hərəkatının 1919-1948-ci illər arasında ən önəmli lideri idi. "Böyük ruh" mənasını verən "Mahatma" adına layiq görülən Qandi həyatı boyu Britaniya imperatorluğunun müstəmləkəsini və terrorizmi rədd edib. Vətəndaşların itaətsizlik kampaniyasının ən əhəmiyyətli fiqurudur. "Ət yeməyənlər dərnəyi"nin liderliyinə qədər yüksələn Qandi həyatı boyunca hind xalqının haqqlarını müdafiə etmiş, ancaq yenə bir hindli tərəfindən öldürülmüşdür.

Onun ingilis hökumətinə qarşı qazandığı ən böyük qələbələrdən biri torpaq razılaşmasıdır. Hindistanda siyasətə atıldıqdan sonra 3 dəfə müvəffəqiyyətsiz sui-qəsdə uğrayıb. Ölkə rəhbərliyində söz sahibi olan Qandi Hindistanın ikiyə bölünməsinə qarşı çıxan əsas siyasətçilərdən olub. 30 yanvar 1948-ci ildə öldürülüb.

**Avraam Linkoln (1809-1865) - ABŞ-ın 16-cı prezidenti**

"Xidmətçi olmağı istəmədiyim kimi, xidmətçi istifadə etməyi də sevmirəm, mənim demokratiya anlayışım budur" ifadəsinin sahibi olan ABŞ-ın 16-cı prezidenti Avraam Linkoln "bir xəyalım var" şüarı ilə seçkini udmuşdu. Xəyalı azad insanların yaşadığı, irqi ayrı-seçkiliyin olmadığı bir dövlət qurmaq idi. Prezident seçildikdən sonra ilk islahatı cənub və şimal əyalətləri arasında sülh yaratmaq olub. 4 il davam edən vətəndaş müharibəsini dayandıran Linkoln 1865-ci ildə yenidən prezident seçilib.

Müharibədəki qələbəsindən 6 gün sonra 15 aprel 1865-ci ildə Avraam Linkoln teatrda "Bizim Amerikalı əmioğlumuz" tamaşasına baxarkən həmin teatrın aktyoru Con Uilks But tərəfindən qətlə yetirilib. Bununla o, qətlə yetirilmiş ilk ABŞ prezidentidir. Sui-qəsdçinin ilk planı Linkolnu qaçırıb cənublu əsirlərin azad edilməsi şərti ilə onu sərbəst buraxmaq idi. Ancaq sonradan planını sui-qəsdlə əvəz edib. Eyni gündə prezidentin köməkçisi və xarici işlər naziri də sui-qəsdə uğrayıb, ancaq möcüzə nəticəsində xilas olublar. Linkolnun sui-qəsdinin sirri ancaq 1961-ci ildə açılıb. O dövrün müdafiə naziri Edvin Stanton Linkolnun yerinə keçmək üçün sui-qəsdi planlaşdırdığı aydın olub. Stanton o gecə teatra gedərkən "səhnədən ayrıldığım zaman Amerikanın ən məşhur adamı olacağam" deyirmiş.

**Hazırladı:**
**çavuş**
**Rəşad ƏMRAHOV**

| Məsul katib | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98 Məktublar şöbəsi: (012) 510-64-28; | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | Əbülfət QASIMOV | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 491 Nüsxə 4650 |